# Azad Qarabağın həyatında əlamətdar günlər bir-birini əvəz edir



***...Bəli, biz 8 noyabrda Şuşaya döyüşərək, vuruşaraq, qan tökərək qayıtmışıq. Ancaq bu gün Azərbaycan mədəniyyəti, Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri Şuşaya qayıdıblar və bu qayıdış reallıqdır, bu reallıqla hər kəs hesablaşmalıdır.***

***Prezident İlham Əliyevin 12 may 2021-ci il tarixdə "Xarıbülbül" festivalının açılışındakı nitqindən***

***Vətən müharibəsi Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin polad iradəsi və rəşadətli ordumuzun qəhrəmanlığı sayəsində tarixi qələbə ilə başa çatdı. Ötən il noyabrın 10-da prezidentlər İlham Əliyev, Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladıqları Bəyanatla işğalçı ölkə kapitulyasiya aktını qəbul etdi və ölkəmizin ərazi bütövlüyü tam təmin olundu. Xalqımız 30 ildən bəri gözlədiyi sevincini yaşayır. Zəfər dövlətçilik tariximizi daha da qürurlandırdı, xalqımızı bütövləşdirdi, daha mübariz etdi, milli həmrəyliyimizi gücləndirdi və ölkəmizin iftixar ünvanına çevrildi.***

Vətən müharibəsi nəticəsində Füzulinin, Ağdamın, Cəbrayılın, Kəlbəcərin, Laçının, Qubadlının, Zəngilanın, Şuşanın, Hadrutun, 300-ə yaxın kəndin, strateji yüksəkliklərin işğaldan azad olunması ilə bölgədə yeni geosiyasi mənzərə yaradıldı. Bu Qələbə Prezident, Ali Baş Komandan İlham Əliyevin 17 illik gərgin siyasi-diplomatik səylərinin, xalqına və torpağına bağlılığının, iqtidar–xalq–ordu birliynin, siyasi həmrəyliyin məntiqi nəticəsidir.

Bu gün Qarabağda yenidənqurma və bərpa işləri geniş vüsət alıb. Artıq bölgədə barıt qoxusunu Xarıbülbülün ətri əvəzləyib. İkinci Qarabağ müharibəsində qazandığımız tarixi qələbədən bir həftə sonra, hələ, dövlət başçımızın dediyi kimi, həmin ərazilərdən barıt qoxusu çəkilməmiş Prezident, Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında səfərdə oldular. Bununla da həmin ərazilərdə yenidənqurma və abadlıq işlərinin əsası qoyuldu. Həmin gün ölkəmizin həyatında çox əlamətdar, tarixi bir gün oldu. Çünki Füzuli –Şuşa avtomobil yolunun təməli qoyuldu. Bu yol çox böyük əhəmiyyət kəsb edirdi. Ona görə ki, bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparırdı.

Son illər ərzində respublikamızda xüsusi əhəmiyyətli bir çox yollar inşa edilib. 2004-cü ildən bu günə qədər 16 min kilometrdən çox yüksək keyfiyyətli, beynəlxalq əhəmiyyətli, hər cür infrastruktura malik avtomobil yolları çəkilib. Bu göstəriciyə görə Azərbaycan, hətta dünyada qabaqcıl yerlərdədir. Ancaq bu yolun xüsusi əhəmiyyəti var. Çünki bu yol bizi Şuşaya aparır. Eyni zamanda, bu layihə işğaldan azad edilmiş torpaqlarda icra edilən birinci layihədir: "Bu gün artıq biz quruculuq işlərinə başlamışıq. Qələbədən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra artıq bu yerdən–Alxanlı qəsəbəsindən Füzuli–Şuşa avtomobil yolu çəkilir. Bu yol çox rahat və geniş olacaq. Bu yol imkan verəcək ki, Şuşaya rahat gedib-gələ biləк".

Həmin vaxtdan başlayaraq, işğaldan azad edilmiş torpaqlara səfərlər intensiz xarakter aldı. Hər dəfə də yeni müəssisələrin, yaşayış məhəllələrinin təməli qoyuldu. Təsadüfi deyil ki, möhtərəm Prezidentimizin işğaldan azad olunmuş ərazilərə hər səfəri tarixi hadisə hesab olunur. Yeri gəlmişkən, Şuşada keçirilən "Xarıbülbül" beynəlxalq musiqi fesivalında sevincini xalqla bölüşən dövlət başçımızın nitqindən bəzi məqamları diqqətə çatdırmaq istərdim: "Əziz dostlar, bu gün ölkəmizin tarixində əlamətdar bir gündür. Uzun fasilədən sonra Cıdır düzündə – hər birimiz üçün müqəddəs olan Şuşada "Xarıbülbül" festivalı keçirilir. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm".

Dövlətimizin başçısı bu günü 30 il səbirsizliklə gözlədiyimizi diqqətə çatdırdı və 30 il Vətən həsrəti ilə yaşadığımızı bildirdi. Dedi ki, 30 il ədalətsizliklə barışmalı olurduq, amma barışmırdıq və hər dəfə deyirdik ki, bu vəziyyətlə biz heç vaxt barışmayacağıq, nəyin bahasına olursa-olsun, öz doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik və bunu etdik: "Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən "Xarıbülbül" musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu qələbəni Azərbaycan xalqı qazandı. Bu, bizim hamımızın qələbəsidir".

Onu da qeyd edək ki, 1989-cu ildən Şuşa şəhərində təməli qoyulan "Xarıbülbül" beynəlxalq musiqi festivalı hər il may ayında Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, İtaliya, İspaniya, Avstriya, Əfqanıstan kimi ölkələrin və keçmiş SSRİ respublikalarının iştirakı ilə keçirilib. Qarabağ münaqişəsinin başlaması və Şuşa şəhərinin işğal olunması ilə festivalın keçirilməsi mümkün olmamışdır. Sonuncu festival 1992-ci ilin may ayında keçirilmişdir. Festival yalnız qısa müddətdə Ağdam şəhəri işğal olunana qədər orada keçirilmişdir.

Prezident İlham Əliyev 2021-ci il 7 may tarixli sərəncamı ilə Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan etdikdən sonra "Xarıbülbül" beynəlxalq musiqi festivalı və Vaqif Poeziya Günləri də bərpa olundu. 2021-ci il mayın 12–13-də yenidən Şuşa şəhərində "Xarıbülbül" musiqi festivalı keçirilmişdir.

Torpaqlarımız işğaldan azad edildikdən sonra ilk dəfə keçirilən festivalda ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələrinin çıxış etməsi mühüm əhəmiyyət kəsb edirdi. Bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna möhtərəm Prezidentimiz vermişdi. Çünki Vətən müharibəsində qazandığımız tarixi Qələbədə Azərbaycanda yaşayan bütün xalqların böyük payı var. Haqq işi uğrunda aparılan bu müharibə bir daha onu təsdiqlədi ki, Azərbaycanda bütün xalqların, müxtəlif millətlərin nümayəndələrinin dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşaması üçün hər cür şərait yaradılıb. Eyni zamanda, ölkəmizdə milli birliyin, siyasi həmrəyliyin də mövcudluğu özünü açıq şəkildə büruzə verdi. Bu müharibə bir daha təsdiqlədi ki, zamanı çatanda Azərbaycan xalqı bir yumruq kimi birləşməyə, Vətənin hər qarış torpağı uğrunda sona qədər mübarizə aparmağa, hətta bu yolda canını qurban verməyə hazırdır. Təsadüfi deyil ki, Qələbədən sonra keçirilən birinci "Xarıbülbül" musiqi festivalında Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış edərək bir daha bütün dünyaya – Şuşadan, qədim torpağımızdan mesaj göndərdilər. Azərbaycan bir daha sübut etdi ki, ancaq çoxkonfessiyalı, çoxmillətli ölkələrdə, cəmiyyətlərdə inkişaf, birlik, milli həmrəylik, sülh olur.

Azərbaycan muğamının əkssədası Qarabağdan səngiməmiş Vaqif Poeziya Günləri yenidən ziyalıları, ictimaiyyət nümayəndələrini, əcnəbi qonaqları Şuşaya topladı. 2021-ci il avqustun 30-da Şuşada dahi Azərbaycan şairi, dövlət xadimi Molla Pənah Vaqifin məqbərəsinin önündə Vaqif Poeziya Günlərinin açılışı keçirildi. Bu tədbir ölkənin, eyni zamanda azad Qarabağın həyatında daha bir əlamətdar hadisə oldu. Vaqifin məqbərəsi bütün digər tarixi abidələrimiz kimi işğal edilmiş torpaqlarda ermeni vandalizminə məruz qalmışdı. Erməni faşistləri məqbərəni dağıtmış, şairin içəridəki barelyefini, sinə daşını sökmüşdülər. Məqbərənin bərpasını Heydər Əliyev Fondu öz üzərinə götürdü və tam bərpa etdi. Ondan sonra Vaqif Poeziya Günlərinə start verildi.

Bu iki faktı diqqətə çatdırmaqda əsas məqsəd odur ki, artıq Şuşadan səslənən Azərbaycan, eləcə də müxtəlif xalqların musiqi sədaları dünyaya yayılır. Bu, Azərbaycanın tarixi qələbəsinin simvoludur.

Ötən il noyabrın 16-da dövlət başçımızın və birinci xanımın işğaldan azad edilmiş torpaqlarımıza ilk səfəri bu gün intensiv xarakter alıb. Həmin ərazilərdə aparılan yenidənqurma və abadlıq işləri dünyanın diqqət mərkəzindədir. Azad olunmuş torpaqlarda bərpa işləri geniş vüsət alıb. Biz artıq böyük qayıdışın astanasındayıq. İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsaitin ayrılması ölkəmizin iqtisadi qüdrətinin göstəricisidir. Dövlət başçımızın 4 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılmış "Qarabağ Dirçəliş Fondu" işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, həmçinin təhlükəsiz yaşayışın və rifahın dəstəklənməsində mühüm rol oynayacaq.

İşğaldan azad edilmiş ərazilərdə beynəlxalq hava limanlarının tikintisi düşmənlərimizi və onların havadarlarını ciddi təşvişə salıb. Füzuli Beynəlxalq Hava Linanının tikintisi səkkiz ay ərzində başa çatdırılmış və artıq istifadəyə verilmişdir. Yeri gəlmişkən, bu yaxınlarda həmin hava limanı ilk rəsmi sərnişinini –Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qəbul etdi. Növbəti hava limanının təməli Laçın rayonunda qoyulub. Mürəkkəb dağlıq relyefə malik olan Laçın rayonunda belə bir strateji nəqliyyat infrastrukturunun yaradılması olduqca əhəmiyyətlidir. Eləcə də, zəngin təbii ehtiyatlara malik Zəngilan rayonunda da hava limanının tikintisi nəqliyyat qovşağı baxımından olduqca vacibdir. Ən əsası, ona görə ki, Zəngilan Azərbaycan Ermənistan, İran və Naxçıvanla sərhəddə yerləşir. Məhz burada hava limanı vasitəsilə yüklərin ölkədən xaricə, əsasən, Türkiyə, Gürcüstan və Rusiyaya daşınması daha əlverişli olacaqdır. Ümumiyyətlə, Qarabağda bütün tikinti, yenidənqurma və bərpa işləri – enerji, nəqliyyat və şəhərsalma işləri vahid konsepsiya əsasında həyata keçirilir. Artıq dövlət başçımız və yerli ictimaiyyətin nümayəndələrinin iştirakı ilə Şuşa şəhəri, Ağdam, Füzuli, Cəbrayıl rayonlarının baş planlarının təqdimatı keçirilmiş, Zəngilan rayonunun baş planı hazırlanır. Dövlət başçısı Qubadlı şəhərinin baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş rayonlara səfər edərək həmin tarixi günlərin birinci ildönümünü təntənə ilə qeyd edir, getdikləri rayonların sakinlərinin sevinclərinə qoşulurlar. Çünki həmin gün işğaldan azad edilmiş rayonların sakinləri, eləcə də, xalqımız üçün əbədi bir Zəfər günü kimi qalacaq. Hər bir şəhərin azadolunma günü tarixi gündür.

***Əliqismət BƏDƏLOV, "Xalq qəzeti"***